BRITISH COUNCIL

ARTS UNIVERSITY PLYMOUTH

# CRAFTING FUTURES

## Craft Research and Education Development Projects in the South Caucasus 2019-2022

Programme Report by Arts University Plymouth, supported by British Council



Copyright © Arts University Plymouth & British Council

All rights reserved

Written by Dr Kim Bagley and Prof Judith Noble

Editorial design by Joshua Kempson

Proqram Hesabatı: Cənubi Qafqazda sənətkarlıq tədqiqatı və təhsilin inkişafı layihələri, Plimut İncəsənət Universiteti 2019 -2022

Hazırki hesabat 2019-2022-ci illər arasında Azərbaycan, Gürcüstan və Ermənistanda sənətkarlıq sektorunu və sənətkarlıq təhsilini araşdıran British Council-ın Crafting Futures proqramının bir hissəsi olaraq Plimut İncəsənət Universiteti tərəfindən həyata keçirilən tədqiqat və təhsil layihəsini təsvir edir. Hesabat bütün layihəyə dair ümumi icmalı əks etdirir və giriş sözü və hər bir ölkədə fəaliyyətimizə dair ayrı-ayrı bölmələrdən ibarətdir. Hesabatımız ingilis dilində çap və yüklənə bilən PDF şəklində mövcuddur. Bundan əlavə, ölkələrə aid hissələr onlayn və müvafiq dilə tərcümə olunmuş şəkildə yerləşdiririb. Daha ətraflı məlumat almaq istəyənlər hər bir ölkə üzrə tədqiqatın tam mətni ilə növbəti mənbədə tanış ola bilərlər (aşağıya baxın).

British Council-a bu layihəyə göstərdiyi səxavətli maliyyə dəstəyinə və hər üç ölkədə əzmkar işçiləri tərəfindən verilən ayrılan vaxt və təcrübəyə görə təşəkkür etmək istərdik. Biz həmçinin Azərbaycan, Gürcüstan və Ermənistandakı bütün tərəfdaşlarımıza, o cümlədən hökumət qurumlarına, milli təşkilatlara, təhsil müəssisələrinə, incəsənət və mədəniyyət müəssisələrinə, habelə məsləhətləri, dəstəyi, qonaqpərvərliyi və həvəsi ilə layihənin həyata keçirilməsini mümkün edən ayrı-ayrı sənətkarlar və ustalara minnətdarlığımızı ifadə edirik.

Dr Kim Baqli (Making Futures Fellow və Aparıcı Tədqiqatçı 2019 -22)
Dosent Cudit Nobl (Layihə Meneceri və Akademik Tədqiqatların Rəhbəri)

Plimut İncəsənət Universiteti, Yanvar 2023.

Bu hesabatın PDF faylı, ölkələr üzrə tərcümə edilmiş hissələr və hər bir ölkə üzrə tədqiqatın tam sürətini aşağıdakı ünvandan daxil olmaq olar:
AUP
BC

# Mündəricat

Ön söz i
Giriş 1
Azərbaycan 7
Qoşmalar 19

# Ön söz

British Council-ın Plimut İncəsənət Universiteti ilə əməkdaşlıqda yaradılmış Crafting Futures layihəsi haqqında bu hesabatı təqdim etmək bizim üçün böyük şərəfdir. Əsası 2019-cu ildə qoyulmuş layihə, yaradıcılıq təhsili kontekstində sənətkarlıq və istehsalın daha dərindən başa düşülməsi və qiymətləndirilməsinin əhəmiyyətini bir çərçivə yaratmaq məqsədi daşıyır.

Kiçik və ixtisaslaşmış universitet olaraq, Plimut İncəsənət Universiteti həllə yönəlmiş tədris və tədqiqat vasitəsilə yaradıcılığı əhatə edir və insanları, mədəniyyəti və məkanı vasitəsilə təsirli sosial ədalət və ekoloji dəyişikliyə sadiqdir. Beynəlxalq tədqiqat platformamız Making Futures ətrafında qurulmuş tədqiqat ənənəmiz ilə bu layihə üzrə fəaliyyətimizin mühüm hissəsi əməkdaşlıq etdiyimiz hər bir ölkədə sənətkarlıq istehsalının və onun yaradıcı təhsillə əlaqəsinin qiymətləndirilməsini və anlaşılmasını təşviq etmək və artırmaq idi. Xüsusilə, vəzifəmiz bu sahədə çalışanlar üçün artan istehsal, biznes və marketinq bacarıqlarının təmin edilməsi yolu ilə hər bir ölkədə sənətkarlıq sektorunun həyat qabiliyyəti və davamlılığını dəstəkləmək idi.

Bu hesabat British Council və onun Azərbaycan, Gürcüstan və Ermənistandakı layihə tərəfdaşları arasında əvəzolunmaz əlaqələrin sübutunu təqdim edir; habelə yeni öyrənmə imkanlarına nail olmaq və davamlı əlaqələr yaratmaq üçün sıx əməkdaşlıqda işləməyin beynəlxalq təsirini vurğulayır. Bu fəaliyyət bütün iştirakçıların fədakar yanaşmasının sübutudur və mən xüsusilə British Council, Plimut İncəsənət Universitetindən olan həmkarlarıma və Azərbaycan, Gürcüstan və Ermənistanda məqsədlərimizə çatmaq üçün incəsənət və mədəniyyət, təhsil, turizm və əlaqəli sektorları təmsil edən yerli tərəfdaş təşkilatların nümayəndlərinin hər birinin zəhmətini qeyd etməliyəm. Əməkdaşlığın öz bəhrəsini verir.

Professor Pol Fieldsend-Danks BA (Hons) MA SFHEA FRSA
Prorektor və baş icraçı direktor
Plimut İncəsənət Universiteti, Böyük Britaniya

# Giriş

Plimut İncəsənət Universiteti Cənub-Qərbi İngiltərədə sənət, media və dizayn fənlərini əhatə edən, sənətkarlıq və əlaqəli istehsalçı və dizayn təcrübələri sahəsində tanınmış təcrübə ilə, bakalavr, magistr və aspirantura səviyyəli kursları təmin edən kiçik, ixtisaslaşmış ali təhsil müəssisəsidir. Universitetin əsas fəlsəfəsi sosial və iqlim ədaləti və dayanıqlıq kontekstində təklif olunan yaradıcı təhsildir. Tələbələrini nəinki yüksək keyfiyyətli iş görə bilən, həm də yaşadıqları dünyaya müsbət töhfə verəcək düşüncəli, dərin təfəkkürlü yaradıcı rəssamlar, istehsalçılar və ustalar yetişdirmək məqsədi daşıyır. Universitetin beynəlxalq tədqiqat platforması olan Making Futures, sənətkarlıq və əl işləri mədəniyyətlərinin təcrübəsini və fəlsəfələrini araşdırır və təcrübə və ideyaları paylaşmaq və bizim üçün sürətlə dəyişən dünyada faydalı olacaq yeni dizayn və istehsal üsullarını inkişaf etdirmək məqsədilə dünya miqyasında istehsalçılar, tədqiqatçılar, mütəfəkkirlər və digər sənət adamları bir araya gətirir.

2019-cu ildə Universitet British Council-ın Crafting Futures proqramı vasitəsilə üç il ərzində Cənubi Qafqazın üç ölkəsində - Azərbaycan, Gürcüstan və Ermənistanda sənətkarlıq və təhsil sektorlarında bir sıra tərəfdaşlarla tədqiqatları əhatə edən geniş miqyaslı layihədə işləmək üçün maliyyə dəstəyi qazanmışdır. Layihədə hər bir ölkədə geniş sayda müxtəlif tərəfdaşlar və təşkilatlar iştirak edirdi. Layihə qarşılıqlı anlaşma və hörmət ruhunda həyata keçirilib və bütün iştirakçılar üçün həyati əhəmiyyətli öyrənmə və yaradıcılıq fürsəti olduğunu sübut edib. Layihə çərçivəsində əməkdaşlıq mühüm yeni təşəbbüslərə və davamlı yaradıcı tərəfdaşlıqlara səbəb olmuş və ümid edirik ki, bu, Cənubi Qafqazda sənətkarlıq və istehsalçı sektorunun gələcək inkişafına və bununla bağlı müvafiq təhsil imkanlarının artırılmasına kömək edəcək. Bu hesabat layihəni və onun nəticələrini ümumiləşdirir.

Plimut İncəsənət Universiteti tərəfindən Dr Kim Baqli Making Futures əməkdaşı və layihə üzrə aparıcı tədqiqatçı təyin edilmiş, dosent Cudit Nobl (Akademik Tədqiqatların Rəhbəri) isə layihənin ümumi rəhbərliyini öz üzərinə götürmüşdür. Biz layihəyə başlayanda Cənubi Qafqaz haqqında biliklərimiz çox məhdud idi. British Council yüksək effektiv tərəfdaş olduğunu sübut etdi. Onun hər bir ölkədəki İncəsənət proqramlarının rəhbərləri bizə təkcə tərəfdaş təşkilatlara deyil, həm də onların ölkələri və mədəniyyətləri, sənətkarlıq, incəsənət və təhsil sektorları haqqında dərin bilik və təcrübəyə çıxış imkanları vermişdir. Biz hesab edirik ki, onların layihəmizə olan həvəsi və ona sadiqliyi layihənin uğurunun əsas amili idi. İncəsən proqramlarının rəhbərlərinə Ölkə Direktorları və British Council-ın digər əsas işçiləri geniş dəstək veriblər.





Azərbaycan, Ermənistan və Gürcüstan nümayəndə heyəti Plimut İncəsənət Universitetində. Soldan: Ana Çxikvadze, Gürcüstanın Təhsil və Elm Nazirliyi, Maya Darçia, British Council; Varazdat Xaçumyan, Romanos Melikyan Musiqi Kolleci, Yerevan; Narek Tovmasyan, British Council; Tamta Şavqulidze, Tbilisi İncəsənət Akademiyası; Dr Stefen Felmingam, Plimut İncəsənət Universiteti; Dilarə İbrahimova, British Council; Tiqran Tadevosyan, Lori Regional Dövlət Kolleci, Vanadzor, Anna Mnatsakanyan, P. Terlemezyan adına Dövlət Təsviri İncəsənət Kolleci; Matias Şortkuk, Plimut İncəsənət Universiteti; Əsmər Abdullayeva, Asmart Creative Hub/Azərbaycan İncəsənət Akademiyası; Daviti Papaşvili, Aisi Peşə Kolleci, Gürcüstan; Natia Trapaidze, Gürcüstan İncəsənət və Mədəniyyət Mərkəzi; Ceyran Məmmədova, Peşə Təhsili üzrə Dövlət Agentliyi, Azərbaycan; Aşken Xudaverdyan, Smithsonian MyArmenia Layihəsi. Şəkil: Plimut İncəsənət Universiteti

2019-cu ildə biz layihəyə başlayanda, Cənubi Qafqaza və Plimuta bir sıra mübadilə, birgə tədqiqat səfərləri və tədris və öyrənmə seminarlarından ibarət fəaliyyət kimi strukturlaşdırılmışdır. COVİD pandemiyasının başlaması səbəbindən biz layihəni tamamilə yenidən dizayn etmək məcburiyyətində qaldıq ki, onun böyük hissəsi onlayn şəkildə həyata keçirilə bilsin. Bu, bütün tərəfdaşlar üçün yeni bir öyrənmə təcrübəsi idi, lakin bu halınz özü layihənin uğurunda mühüm amilə çevrilmişdir, çünki səfərlər zamanı vaxt məhdudiyyətindən fərqli olaraq biz onlayn ünsiyyət vasitələri ilə daha çox müzakir və görüşlər keçirə bildik və gözlədiyimizdən daha böyük sayda fərd və təşkilatla görüşə bildik. British Council rəqəmsal texnologiya və onlayn resurslara çıxışın bütün layihə iştirakçıları üçün bərabər şəkildə təmin edilməsində mühüm rol oynamışdır.

Layihə iştirakçı ölkələrin hər biri üçün sürətli dəyişiklik dövründə icra olunurdu. Sovet dövrünün mirası müəyyən mənada hələ də mövcuddur və xüsusən də təhsil sektorunda hələ də göz qabağındadır, lakin hər bir ölkədəki tərəfdaşlarımız yeni, yaradıcı iş üsulları inkişaf

etdirməkdədirlər və onlarda yeni ideya və metodları sınamağa böyük həvəsin olduğunun şahidi olduq. Cənubdi Qafqazda siyasi vəziyyətin hələ də çətin olduğunu qeyd etmək vacibdir. Bunu dərin başa düşməyə dəstək olan və ümid edirik ki, vəziyyətin mürəkkəbliyini və bütün maraqlı şəxslərin müxtəlif həssaslıqlarını dərk edən iş üsulunu inkişaf etdirməyə kömək edən hər bir ölkədəki bütün tərəfdaşlarımıza minnətdarıq.

Hər üç ölkədə bizi böyük ruh yüksəkliyi və həm də mehribanlıqla qarşıladılar. Sənətkarlar öz emalatxanalarını tədqiqatçılarımızın üzünə açaraq, böyük maraqla ilə öz işlərini və fikirlərini bölüşürdülər. Müəllimlər öz tədris metodlarını paylaşmaqla bərabər, yeni pedaqoji bacarıqlar və öyrənmə üsullarını sınaqdan keçirməyə, seminarlara və tədbirlərə qoşulmağa hazır olduqlarını nümayiş etdirdilər. Hər üç ölkədə sənətkarlıq sektorları ilə bağlı araşdırmalar apardıq. Yerli təhsil və mədəniyyət tərəfdaşlarını dəstəyi ilə biz sənətkarlarla işlərinin marketinqinə, həmçinin onların rəsmi və qeyri-rəsmi sənətkarlıq təhsili ilə əlaqəsinə əsaslanaraq, onların işləri haqqında müsahibə verən yerli tədqiqatçıları təyin edib onlara təlim keçirə bildik.

Gürcüstan və Azərbaycanda biz Yaradıcı Təlim çərçivəsində yeni onlayn müəllim təlim modullarını yaratmaq üçün Peşə və Təhsil Təlimi (PTT) sektoru ilə əməkdaşlıq etdik. Ermənistanda “Yaradıcı sahibkarlıq” modulu yaradılıb. Bu modullar hər bir ölkənin xüsusi ehtiyaclarını qarşılamaq məqsədilə aparılan tədqiqata cavab olaraq hazırlanmış və təhsilalan mərkəzli yanaşmanı təşviq etmişdir. Modullar müəllim qrupları ilə sınaqdan keçirilmiş və hazırda istifadə üçün təqdim olunub. Ümid edirik ki, onlardan geniş şəkildə istifadə olunacaq və müəllimlərin və PTT sektorunun dəyişən ehtiyaclarına cavab olaraq daha da inkişaf edəcəklər.

Bu layihə həqiqi mədəniyyətlərarası əməkdaşlığın faydalı təcrübəsi olmuşdur. Biz yeni iş üsullarını öyrəndik, habelə layihə çərçivəsində uzunmüddətli yaradıcı dostluq və işgüzar əlaqələri yarandı. İnanırıq ki, qurulan əlaqələr müəssisələr və ölkələrimiz arasında yeni tərəfdaşlıqların və layihələrin inkişafına yol açacaq və genişləndirəcək.

Layihə 2019-cu ilin sonlarında İncəsənət Universitetinin Plimut əməkdaşlarının Cənubi Qafqaza layihənin əhatə dairəsini qiymətləndirmək üçün keçirilən bir sıra səfərləri ilə başladı. Bu səfərlər xüsusi olaraq hər bir ölkədə sənətkarlıq və yaradıcılıq təhsilini nəzərdən keçirdi. Səfərlər çərçivəsində böyük sayda insanlarla tanış olduq və kolleclərə, muzeylərə, sənətkarlıq studiyalarına və digər təşkilatlara baş çəkdik. Bu səfərlər Böyük Britaniya və Cənubi Qafqaz institutları və tələbələri, sənətkarları və müəllimlərini birləşdirən, gələcək üç il ərzində inkişaf edəcək planların, ideyaların, dostluqların və iş əlaqələrinin başlanğıcı idi. Sənətkarlar öz təcrübələrinin kompleks mədəni və sosial dəyərini və sektor daxilində



Böyük Britaniya və Gürcüstan nümayəndə heyəti Aisi Peşə kollecində, Kaçreti rayonu, 2019. Soldan: Dr Kim Bagli, Plimut İncəsənət Universiteti, Kendall Robbins, British Council, Matias Şortkuk, İncəsənət Universiti, Plimut, Maka Dvalişvili və Tamar Kiknadze, Gürcüstan İncəsənət və Mədəniyyət Mərkəzi, Daviti Papaşvili, Aisi Peşə kolleci. Foto: Giorgi Ramadze.

təhsilin inkişafının vacibliyini başa düşürlər. Nəticədə, tədqiqat və təhsil sahələri inkişaf və əməkdaşlıq üçün əsas sahələr kimi seçilmişdir.

Plimuta edilən səfərlər zamanı böyük bir qlobal dəyişikliyin başladığı hissi olunurdu. Ancaq o zaman heç birimiz Covid pandemiyasının həyatımızın bütün sahələrinə necə təsir edəcəyini həqiqətən başa düşmürdük. Sonradan Cənubi Qafqazda başlayan və ətraf bölgələrə təsir edən münaqişə baş verdi ki, onu da nəzərdən qaçırmaq olmazdı. Bu çətin şərtlər layihə üzərində işləyən hər kəsdən sürəti qorumaq üçün çox çalışmağı tələb etmişdir. Sözsüz ki, biz ən azı hər kəsi motivasiya etmək üçün yorulmadan çalışan və mümkün və ya zəruri olan bütün vasitələrdən istifadə edən British Council həmkarlarımızın səylərini unutmamalıyıq. Layihəni sadəcə ləğv etmək daha asan olarkən birlikdə işimizi dəstəkləməyə davam etdiyi üçün British Council-a çox minnətdarıq. British Council-ın İncəsənət proqramının rəhbərləri ilkin layihə təkliflərini və planlarını yenidən formalaşdırmaq üçün bizimlə sıx əməkdaşlıq etdilər. Uzun müddət çəkən qapanmadan çoxumuzun asanlıqla çıxmasına kömək edən sırf qurduğumuz güclü iş əlaqələri olmuşdur.

Pandemiya daha geniş vüsət almaqda idi və 2020-ci ilin aprel ayına qədər aydın oldu ki, yaxın gələcəkdə heç bir beynəlxalq səyahət mümkün olmayacaq və üç il davam edəcək beynəlxalq layihəni bütövlüklə onlayn keçirmək lazım gələcək. Demək olar ki, tamamilə məsafədən

işləməyimizə baxmayaraq, çox səmərəli əməkdaşlıq yarandı və əsas məqsədlərimizə nail olduq. Bununla bərabər, onlayn format praktiki təcrübələrin keçirilməsi üçün əlavə çətinlik yaratmış oldu. Eyni zamanda, bəzi aspektlər məsafədən əməkdaşlıq sayəsində daha da təkmilləşdirildi. Xüsusilə, biz çoxlu sayda insanı layihəyə cəlb edə, çevikliyi qoruyub saxlaya və uyğunlaşa bildik. Məsələn, müəllimlərin cədvəlini və qısa müddətdə onlayn tədbirlərə qatılmalarını təmin etmək üçün təlim sessiyalarının keçirilmə vaxtını onlara uyğunlaşdırdıq. Çox güman ki, onlayn ünsiyyət sayəsində biz üzbəüz əlaqə qura biləcəyimiz insandan daha çox iştirakçı ilə və daha tez-tez görüşlər keçirə bildik. İnternetə çıxış və rəqəmsal savadlılıq və infrastruktur layihənin bəzi iştirakçıları üçün problemlər yaratdı və sənətkarlıq sahəsində peşəkar və təhsil təcrübələri üçün internetin potensialını maksimum dərəcədə artırmaq üçün daha çox işə ehtiyac olduğunu ortaya qoydu. Bununla belə, bu kimi vəziyyətlərdən çıxış yolu hər zaman olub; cib telefonlarından istifadə və müəyyən texnoloji vasitələri müvəqqəti istifadəyə götürməkdən başlayaraq, yerin kirayə götürülməsi və ya vaxt və texnoloji fərqlərin öhdəsindən gəlmək üçün təqdimatları əvvəlcədən video yazısını aparmağa qədər insanları birləşdirməyin bir yolu. Sənətkarlarla apardığımız araşdırmalar göstərdi ki, hətta ucqar kəndlərdə də belə internetdən istifadə gözlədiyimizdən qat-qat yüksək olmuşdur və bu, Crafting Futures Proqramı vasitəsilə apardığımız rəqəmsal təhsilin Cənubi Qafqaz sənətkarlıq təcrübələrinə hansı dərəcədə əhəmiyyətli olduğunu sübut edir.

Cənubi Qafqazda həm kolleclərdə, həm də qeyri-rəsmi tədris müəssisələrində bariz müşahidə olunan mükəmməl texniki bacarıq və texniki bacarıq təhsili ilə səciyyələndirilən güclü sənətkarlıq təcrübələri ənənələri mövcuddur. Layihənin əvvəlində sənətkarlıq və sənətkarlıq təhsili sektorunu qiymətləndirərkən biz müəyyən etdik ki, ilk növbədə inkişafa ehtiyac duyulan sənətkarlıq texniki bacarıqları deyil, əksinə, təhsil sistemində sovet irsinin və onun sosial və iqtisadi şəraitə təsirinin öhdəsindən gəlmək üçün regionda daha geniş spektrli təhsil təcrübələrini inkişaf etdirmək üçün imkanlar mövcuddur.

Ümid edirik ki, layihə vasitəsilə biz müəllimlərə və sənətkarlara müxtəlif tədris və öyrənmə yollarını numayiş etdirmiş və onlara studiyada və sinifdəki fəaliyyətlərini paylaşmaq imkanı vermişik. Biz əməkdaşlıq, beynəlxalq iş və mədəniyyətlərarası ünsiyyət haqqında çox dərin biliklərə yiyələndik.

Biz həmçinin müşahidə etdik ki, ümumilikdə sənətkarlıq sektorunu araşdırmaq və daha yaxşı başa düşmək, xüsusən də nəsillərarası və qeyri-rəsmi tədrisə diqqət yetirmək üçün imkanlar genişdir. Layihəmizin vaxtı bizə təkcə sənətkarlıq sektorunun üzləşdiyi daha geniş qlobal problemləri araşdırmaq üçün deyil, həm də pandemiyanın, xüsusən 2020 və 2021-ci illərdə insanların həyatında və dolanışıq vasitələrində baş verən kəskin dəyişiklikləri, habelə bu fövqəladə dövrdə yaradıcı olmaq kimi nəzərə almaq üçün mühüm bir fürsət təqdim etdi. Ümid edirik ki, işimiz regionda sənətkarlıq təcrübəsini zənginləşdirəcək və tədqiqat potensialını artıracaq.



Fəzail Allahverdiyevin Lahıcdakı emalatxanasında çəkic. Foto: Ədalət Hacıyev

# Azərbaycan

Azərbaycanda əsas tərəfdaş kimi Asmart Creative Hub və Dövlət Turizm Agentliyi çıxış etmişdir. İşimizə mühüm dəstək olan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə və Peşə Təhsili üzrə Dövlət Agentliyinə minnətdarlığımızı ifadə edirik. Asmart və Turizm Agentliyi ilə əməkdaşlıq çərçivəsində Kim Baqli, ASMART direktoru və Sabah proqramının dekanı Əsmər Abdullayevanın dəstəyi ilə iki çox istedadlı tədqiqat üzrə köməkçimizin tədqiqat səylərini təfərrüatlı şəkildə əks etdirən tədqiqat hesabatı hazırladıq. Əsmərin təcrübəsi və dəstəyi Azərbaycandakı işimizin uğurunda əsas rol oynamışdır. Dövlət Turizm Agentliyinin nəzdində fəaliyyət göstərən Qoruqların İdarə Edilməsi Mərkəzinin sədr müavini Sədaqət Davudovanın da dəstəyini yüksək qiymətləndiririk.

Kim və Əsmər həmçinin peşə təhsili sektorunda istifadə üçün Yaradıcı Öyrənmə modulunu hazırlayıblar. Bu, Gürcüstanda analoji modulla paralel olaraq hazırlanmışdır. Daha sonra sözügedən modul Plimut İncəsənət Universitetinin yaradıcılıq təhsili üzrə mütəxəssisi Dr Natalia Eernstmanın rəhbərliyi ilə Asmart Creative Hub-ın dəstəyi ilə Azərbaycanda müəllim və tələbələr tərəfindən sınaqdan keçirildi. Biz həmçinin 2021-ci ilin mart ayında Gənclik üzrə Dövlət İnkişaf Mərkəzi ilə birgə Facebook-da Plimut İncəsənət Universitetinin mütəxəssis heyəti və sənətkarları tərəfindən Azərbaycan müəllimlərinin böyük maraq göstərdiyi bir sıra Sənətkarlı Müzakirələri adlı onlayn təlimlər təşkil etdik.

## Kontekst

Azərbaycanda güclü dəyişiklik və inkişaf abu-havası mövcuddur. Ölkənin dərin mədəni tarixi və bir çox sənət ənənələri var. Yaşadığımız yenilik hissi sovet dövründən bəri ölkədə baş verən geniş və transformativ dəyişikliklərdən irəli gəlir. Azərbaycandakı fəaliyyətimiz əməkdaşlıq etdiyimiz peşəkarların həvəsi və sadiqliyi ilə səciyyələnirdi. Xüsusilə ayrı-ayrı müəllimlərin davamlı olaraq öz təcrübələrini təkmilləşdirməyə çalışdıqlarına çox müsbət təəssürat yarandı. Onlar bütün təşəbbüslərimiz və birgə faliyyətlərimiz vasitəsilə dəyişiklikləri tətbiq etmək üçün çalışırdılar. Bakıda Şahzadənin Ənənəvi İncəsənət Məktəbi və Dövlət



Rəssamlıq Akademiyasında Sabah proqramı kimi öz mədəni kontekstində və fəaliyyət mühitində yer alan çox yüksək keyfiyyətli təhsil proqramlarının Azərbaycanda mədəniyyətə və cəmiyyətə uzunmüddətli faydalarını görmək həqiqətən maraqlı idi. Bu layihələr, xüsusilə Şəki və Bakıda mədəni təcrübələri inkişaf etdirməyə davam edəcək gənc dizayner və dizayner – sənətkarların yetişdirilməsinə və davamlı məşğulluğun təmin edilməsinə kömək etmişdir. Bu proqramların miqyası müvafiq qaydada məhdud olsa da, onların yüksək səviyyədə effektiv olduğu müşahidə olunur. Bu proqramların daha geniş faydalarından bəzilərini peşə sektorunda yaymaq potensialı var.

## Azərbaycanda sənətkarlıq

Azərbaycanda sənətkarlığın qədim tarixi və mədəniyyətlə möhkəm bağlılığı var. Sənətkarlığın bəzi aspektləri, məsələn, xalça və kilim istehsalı kimi tədqiqat və institusional inkişafdan həqiqətən faydalanmışdır. Digər sənətkarlıq təcrübələri gələcək inkişafdan faydalanacaq və məhz bu səbəbdən fəaliyyətimiz üçün bu istiqamət daha çox əhəmiyyətli idi. Müşahidələrimiz və ilkin tədqiqatlarımıza əsasən, biz məktəblərdə və kolleclərdə xüsusi sənətkarlıq və texniki bacarıq və səriştələrə köklənmək əvəzinə, yaradıcılıq və təxəyyül ətrafında bacarıqları



Tədqiqatçı, tekstil dizayneri Vəfa Qurbanova Kəlağayı ustası Abbasəli Talıbovun rəhbərliyi ilə Basqaldakı Kələqay emalatxanasında ənənəvi əl oyma ornamentlərdən istifadə edərək ipək parçaya mum çəkir. Foto: Ədalət Hacıyev

inkişaf etdirərək, yaradıcı təhsilin inkişafına geniş yanaşma tətbiq etdik. Bu, bizə modulun yaradılmasında geniş spektrli müəllimlərlə və tədqiqat layihəsi üzrə sənətkarlarla işləməyə imkan açdı.




Günel Məcidova Şəkidəki sənətkarlar evində "Təkulduz" tikmə nümayişi ilə. Foto: Vəfa Qurbanova

## Tədqiqat Layihəsinin inkişafı

İki elmi işçi - Ədalət Xəliyev və Vəfa Ədalət ASMART-dan Əsmər Abdullayevanın məsləhət və tədqiqat, Turizm Agentliyinin isə səyahət dəstəyi ilə Azərbaycanın dörd bölgəsinə - Şəki, Şamaxı, Lahıc və Basqala elmi səfərlər ediblər. Bu bölgələr güclü sənətkarlıq icmaları, regional ixtisasları və tarixləri, daxili və beynəlxalq turizmlə əlaqələri ilə seçilib. Paytaxt və regionlar arasında əhəmiyyətli iqtisadi və sosial fərqlər olması səbəbindən biz də diqqəti Bakıya yönəltməmək qərarına gəldik; regionların paytaxtla müqayisədə daha çox dəstəyə və inkişafa ehtiyacı var.

Tədqiqatçılarımız Azərbaycanın müxtəlif bölgələrində fərqli sənət növlərini və geniş çeşidli təcrübələri əhatə edən qırx yeddi sənətkarla müsahibə apardılar. Şamaxıda sənətkarlıq sənətinə rəssamlıq, toxuculuq, ağac emalı, keramika, papaqçılıq və xalçaçılıq daxildir.



Basqalda ipək boyama və mum müqaviməti (wax resist) ilə naxışlar yaradan kəlağayı ustalarına baş çəkdik. Lahıcda dəmirçi, dəri ustası, xalçaçı və papaq ustası ilə yanaşı, bir çox misgərdən müsahibə götürülmüşdür. Şəki öz keramika sənəti ilə məşhurdur və biz gil ilə işləyən bir sıra insanlarla - həm az bişmiş qırmızı saxsı qablar, həm də yüksək dərəcədə bəzədilmiş yüksək dərəcədə bişmiş məhsul istehsalçılar ilə söhbət etdik. Takulduz tikməçiləri, kəlağayı, geyim ustaları və hətta halvaçılarla müsahibələr apardıq.

Hər ikisi sənətkarlıqdan irali gələn və müvafiq olaraq dizayn və sahibkarlıqla maraqlanan Vəfa və Ədalətin tarixçəsi çox ilhamvericidir. Onlar tədqiqat hesabatı üçün həyati vacib demoqrafik və statistik məlumatları toplayaraq hazırlanmış müsahibə suallarını sənətkarlara verməklə kifayətlənməyib, həm də onları emalatxanalarda müşahidə edib, həyatlarını və sənətkarlıq təcrübələrini öyrənməyə vaxt ayırıblar. Sənətkarların mehribanlığı, qonaqpərvərliyi və işlərinə olan həvəsi planlaşdırılmamış studiya səfərlərinə, dulusçuluq və odun yığımı, sobalara, studiyalara, evlərə və emalatxanalara baş çəkməyə səbəb oldu. Bu sənətkarlıq icmalarının insani və yaradıcı səyləri səmimiyyət və sadiqliklə müşahidə olunurdu. İqtisadi qeyri-müəyyənliyə (həm ümumi, həm də pandemiya ilə bağlı) və bəzi sənətkarların öz bacarıqlarını ötürmək üçün şagirdlərin tapılmasında çətinliyə baxmayaraq, iştirakçılarımızın öz sənətlərinə olan sevgisi və qayğısı, habelə başqaları ilə bölüşmək istəyi olduqca təsiredici idi və sektoru üçün çox böyük ümidlər verir. Bir çoxlarının öz sənətlərini ailələri daxilində, kənar şəxslərə və peşə məktəbləri kimi rəsmi şəraitdə öyrətməklə məşğul olduqlarını və son



Dulusçu, Araz Hüseynov, Şəkidəki mağazasında. Foto: Vəfa Qurbanova

dövrlərdə təbii boyama kimi tənəzzülə uğramış müəyyən xüsusi bacarıqları inkişaf etdirmək imkanlarının olduğunu öyrənmək də ürəkaçan idi.

Pandemiyadan sonra daxili turizm bazarına diqqətin artması azərbaycanlılara yerli sənətkarlıq ənənələri və təcrübələri haqqında daha çox məlumat əldə etmək və sənətkarlıq üçün daxili bazarı inkişaf etdirmək sahəsində mühüm imkan yaradıb. Tədqiqat sahəsində yerlərə səfərlər zamanı biz dəfələrlə müşahidə etdik ki, insanlar öz sənətlərinin tarixçəsini danışmağı sevir və öz təcrübələrinin ən yaxşı təşviqatçılarıdı. Bu layihənin müsbət nəticəsi sənətkarların fikirlərinin ölkə daxilində eşidilməsi məqsədilə daha geniş imkanların yaradılması olardı. Müasir dövrdə istifadə məqsədilə tarixi üsulları daha da inkişaf etdirmək və yerli materialların əldə edilməsi üçün daha çox imkanlar yaratmaq istiqamətində sənətkarlara öz tədqiqatlarını aparmağa da dəstək verilə bilər. Hal-hazırda bir çox sənətkarlıq materialları ixrac olunur, lakin Azərbaycanın çox zəngin təbii ehtiyatları var ki, onları kiçik miqyaslı istehsal üçün daha yaxşı inkişaf etdirmək və nəticədə sənətkarlar tərəfindən maraqlı əsərlər vasitəsilə hekayələrini danışmaq üçün istifadə etmək olar.

## Təhsil modulunun inkişafı

Sənətkarlıq və yaradıcı fənlər üzrə tələbələrin yaradıcılığını, problem həllini və refleksiyasını təşviq etmək üçün biz Yaradıcı Təlim Modulu hazırladıq. Yeni modulun tərtibatı Gürcüstandakı oxşar modulun inkişafı ilə paralel aparılmış və hər iki ölkədəki müəllim qrupları ilə əməkdaşlıq nəticəsində fərqli ideyalar toplayan AUP əməkdaşları üçün zəngin biliklərin qazanması təcrübəsinə çevrilmişdir. İnkişaf formatına rəsm çəkmək, hazırlamaq və refleksiya ilə bağlı müxtəlif məşğələ və fəaliyyətləri sınamaq və fərqli tədris metodunu təcrübədən keçirmək üçün bir qrup müəllimlə bir sıra onlayn seminarlar daxil idi. Müəllimlər orta və peşə təhsil müəssisələrinin səhnə makiyajından toxuculuq dizaynına qədər müxtəlif sahələri təmsil edirdilər və tərcüməçi Xalidə Xəlilzadənin sayəsində interaktiv öyrənmə prosesində iştirak edirdilər. Burada Rəssamlıq Akademiyası nəznində peşə kollecinin, Dövlət Peşə Təhsili Agentliyinin tabeliyindəki kolleclərin müəllimləri, Respublika Uşaq-Gənclər Mərkəzinin iki və Biləsuvar və Şamaxıdan iki sənətkarlıq müəllimi iştirak edirdi. Müəllimlər onlara verilən qablaşdırma dizaynı haqqında qısa məlumatı maraqla dinləyib axşam üç saatlıq məşğələlərimizə qoşulmazdan əvvəl tam bir gün dərs keçmələrinə baxmayaraq, öz ideyalarını və təkliflərini paylaşdılar. Onlar həmçinin onlayn tələbə olmaq, tablet fotoşəkillər paylaşmaq və hətta proseslərini göstərmək üçün videolar hazırlamaq tapşırığın da öhdəsində məharətlə gəldilər. Daha sonra açıq və maraqlı şəkildə fəaliyyətimizlə məşğul olan tələbələrlə oxşar xarakterli seminarlar keçirildi.



Sonra bir qrup müəllim modulu bir qrup tələbə ilə sınaqdan keçirmək üçün Dr Natalia Eernstman ilə sıx əməkdaşlıq şəraitində işlədi. Modul və tədris materialları haqqında rəy bildirmək və onları təkmilləşdirmək üzərində çalışdılar. Bu təcrübə də həvəslə və iştirakçı müəllimlərdən yeni biliklər qazanmaq üçün çox diqqətlə qarşılandı. Onların öyrənmək istəyi və sinifdə və ya studiyada fərqli yanaşmaları sınamaq marağı çox bariz şəkildə müşahidə olunurdu. Həmkarların dəstəyi və birlikdə öyrənmək hissi sessiyalarda güclü birlik hissi yaradırdı. Modulun sınaq müddəti müəllimlərə mütəmadi şəkildə həmkarlarla müzakirəsi aparmaqla dəstəkləyici mühitdə öz siniflərində yeni hazırlanmış modulu yoxlamaq imkan verdi.



Misgər Kəbləyi Əliyevin Lahıcdakı mağazasında sərgisi. Foto: Vəfa Qurbanova

## Sənətkarlıq haqqında onlayn görüşlər

2021-ci ilin mart ayında ölkə üzrə müəllimlər üçün peşəkar inkişaf fəaliyyəti qismində biz British Council Azərbaycanın Facebook səhifəsi vasitəsilə müxtəlif mövzularda üç onlayn müzakirə təşkil etdik. Bu təşəbbüs dəyərli tərəfdaşımız olan (Təhsil Nazirliyinin nəzdində) Respublika Uşaq və Gənclərin İnkişafı Mərkəzi ilə əməkdaşlıq çərçivəsində həyata keçirilmiş və yeni biliklər qazanmaq üçün ölkənin müxtəlif bölgələrini təmsil edən müəllimlər

tərəfindən maraqlı qarşılanmışdı. Təşkilatın fədakar və yaradıcı müəllimləri bir sıra fənlər üzrə sinifdənkənar öyrənmə təmin edirlər. Təşəbbüs həmçinin ASMART Creative Hub tərəfindən dəstəklənmişdir. AUP-nin bakalavr və maqistr təhsil pillələrini təmsil edən üç yaradıcı təhsil mütəxəssisi öz təcrübələrini paylaşmışdırlar. Tekstil müəllimi Şarlit Uoren, yaradıcılığı artırmaq üçün sərhədlərdən səmərəli istifadə haqqında; Yaradıcı Təhsil üzrə baş müəllim Natalia Eernstman yaradıcılığı təşviq edən öyrənmə mühitinin yaradılması haqqında danışmış və bakalavr mərkəzimizdən kurikulum meneceri Məddi Blis tələbələri yaradıcı risklərə cəlb etməklə öyrənmə təcrübəsini bölüşdü. Bu onlayn görüşlərə Azərbaycanın hər yerindən böyük maraq və iştirakın şahidi olduq. Üç görüşə ümumilikdə səkkiz mindən çox iştirakçı qatılmışdı. İlk söhbət zamanı Azərbaycanda işləyən sənətkarlıq müəllimlərindən beş yüzdən çox şərh aldıq. Bu dərəcədə yüksək rəy sayı ölkə üzrə müəllimlərin öz təcrübələrini inkişaf etdirməyə olan marağı və müxtəlif metodologiyalarla məşğul olmağa hazır olduqlarını nümayiş etdirdi.

## Tədqiqat tövsiyələri

Gənclər qısa kurslar və ya ustad dərsləri vasitəsilə sənətkarlıq təcrübələri ilə tanış ola bilərlər.

Maraqlanan gənclər təcrübəli və hörmətli sənətkarlarla əlaqələndirilə bilər. Bu, hər iki tərəfə dəstək olacaq və onlara qeyri-formal öyrənmənin formal öyrənmə mühitindən necə fərqləndiyini başa düşməyə imkan verəcək və uzunmüddətli yanaşma kimi inkişaf edə bilər. Sənətkarlara maddi dəstək vermək onlara minimal maliyyə riski ilə tələbə və ya şagird qəbul etməyə imkan verəcək və covid-19 pandemiyası səbəbindən sənətkarların üzləşdiyi çətin vəziyyətləri yüngülləşdirməyə kömək edəcək.

Bank xidmətlərinə və internetə çıxışın təmin edilməsi yolu ilə sənətkarlara əlavə dəstək verilə bilər, bu da kompüter proqram təminatından daha çox əlçatan telefonların və telefon proqramlarının istifadəsini də nəzərdə tutur. Bu, nəsillərarası öyrənmə və gənclərlə onların yaşlı qohumları arasında əlaqələrin qurulması üçün mühüm imkan yaradacaq.

Marketinq, reklam və sənətkarlıq haqqında maarifləndirici kampaniyalar ölkədaxili turistlərə və lazım gəldikdə yerli sakinlərə diqqət yetirməklə inkişaf etdirilə bilər ki, onları suvenir alıcıları deyil, məlumatlı kolleksi sahibləri və sənətkarlıq işləri üzrə peşəkarlar olmağa sövq etsin. Bu, Azərbaycan sənətkarlığını beynəlxalq turizm sektoruna təşviq edən mövcud təşəbbüsləri faydalı şəkildə tamamlayacaqdır.

Sənətkarlıq icması daxilində icma əlaqələri qruplar, forumlar, assosiasiyalar və ya tədbirlər vasitəsilə daha da gücləndirilə bilər. Bu, mövcud və kollegial sənətkarlar cəmiyyətini inkişaf etdirərdi.

Bu proqramın bir hissəsi kimi hazırlanmış Yaradıcı Tədris Modulu icma daxilində təxəyyül və problemlərin həllini təşviq edən yaradıcı səriştələri inkişaf etdirmək üçün icma mərkəzlərinə və şəbəkələrə/məkanlarına təklif edilməlidir. Bu inam və risklərə qarşı müqavimət bacarığını qurmağa kömək edəcəkdir.

Bütün bu tədbirlər Azərbaycanın ixtisaslı və geniş miqyaslı sənətkarlıq sektorunda potensialın daha da artırılmasına kömək edəcək.



İlqar Rəsulzadənin Şəki Xan Sarayındakı emalatxanasında. Bu, oymaçılıq və həndəsi rəngli şüşələrin birləşməsindən hazırlanmış mürəkkəb həndəsi vitraj pəncərə növüdür. Foto: Ədalət Hacıyev




İbrahimxəlilov Kamran Şəkidə Abad Keramika Mərkəzində şiraltı piqmentlərlə vaza rəngləyir. Foto: Vəfa Qurbanova



Bakıdakı Xalça Muzeyi. Foto: Kim Bagley

# Qoşmalar

Layihə iştirakçılarının siyahısı

Böyük Britaniya
Plimut İncəsənət Universitetinin işçi heyəti:
Dosent Cudit Nobl (Akademik tədqiqatların rəhbəri)
Dr Kim Baqli (Making Futures Fellow; Aparıcı tədqiqatçı)
Dr Natalia Eernstman (baş müəllim)
Reyçel Darborn (mühazirəçi)
Nik Krouli (Təhsil texnoloqu)
Tim Dikinson (Öyrənmə və Tədris)
Professor Stefen Felmingam (Elmi məsələlər üzrə prorektor)
Liz Evans (Ali təhsilə hazırlıq müəllimi)
Məddi Blis (Kurikulum meneceri, Ali təhsilə hazırlıq)
Mel Braun (dizayn və kommunikasiyalar üzrə dekan köməkçisi)
Stefani Ouyens (Elmi məsələrlə üzrə dekan)
İan Hanki (Baş Texnik)
Ben Mundi (Texniki resurslar üzrə rəhbər)
Şarlot Uorren (Müəllim)
Matias Şortkuk (2020-ci ilə qədər ali təhsilə hazırlıq dekanı)

British Council
Qalina Koretskaya (Proqram rəhbəri, Crafting Futures Proqramı, Mərkəzi Asiya və Cənubi Qafqaz)
Katia Stüard (Proqram Meneceri, Crafting Futures Proqramı, 2020 – 2022)
Kendall Robbins (Proqram Meneceri, Crafting Futures Proqramı, 2019)

Azərbaycan

İştirakçı təşkilatlar və tərəfdaşlar:

Azərbaycan Dövlət Turizm Agentliyi
Azərbaycan Təhsil Nazirliyi
Azərbaycan Mədəniyyət Nazirliyi
Peşə Təhsili üzrə Dövlət Agentliyi
EkoSfera və Gənclər üçün Dövlət İnkişaf Mərkəzi
Asmart Yaradıcılıq Mərkəzi
İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi
Bakı Dövlət Mədəniyyət və İncəsənət Peşə Təhsili Mərkəzi
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci
Şamaxı rayon tam orta məktəbi
Biləsuvar rayonu, Xırmandalı kənd tam orta məktəbi
İsmayıllı dövlət peşə təhsil mərkəzi

İştirakçılar və fərdi tərəfdaşlar:

Dilarə İbrahimova (British Council İncəsənət Meneceri, avqust 2022)
Sədaqət Davudova (Dövlət Turizm Agentliyinin direktor müavini)
Elçin Kərimov (Dövlət Turizm Agentliyi)
Firuzə Sultan-zadə (Respublika Uşaq İnkişaf Mərkəzinin direktoru)
Əsmər Abdullayeva (ASMART Yaradıcılıq Mərkəzinin direktoru, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Sabah proqramının dekanı)
Könül Rəfiyeva (ASMART Creative Hub meneceri)
Ceyran Məmmədova (Peşə Təhsili üzrə Dövlət Agentliyi)
Xalidə Xəlilzadə (Tərcüməçi)
Vəfa Qurbanova Ədalət (elmi işçi)
Ədalət Hacıyev (elmi işçi)
Fəxri Abbasov (Tərcüməçi)
Fikrət Həşimov, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kollecinin rektoru

Modulların hazırlanması üzrə ilkin seminarlarda iştirak edən müəllimlər:
Nəsimi Əliyev (Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində Rəssamlıq Kolleci)
Gülnar Əliyeva (Bakı Dövlət Mədəniyyət və İncəsənət Peşə Təhsili Mərkəzi)
Cavid Dadaşov (Gənclərin Dövlət İnkişaf Mərkəzi)
Fidan İbrahimzadə (Gənclərin Dövlət İnkişaf Mərkəzi)
Kəmalə Abbasova (Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində Rəssamlıq Kolleci)
Gülçin Hüseynova (Biləsuvar rayonu, Xırmandalı kənd tam orta məktəbi)

Tələbələri ilə tam Modulların pilot layihəsində iştirak edən müəllimlər:
Rəhimə Məmmədxanova (Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində Rəssamlıq Kolleci)*
Fərəxbanu Əmirova (Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində Rəssamlıq Kolleci)*
Aybəniz Pənahova (Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində Rəssamlıq Kolleci)*
İlhamə Cavadova (Bakı Dövlət Mədəniyyət və İncəsənət Peşə Təhsili Mərkəzi)*
Nadirə Süleymanova (Bakı Dövlət Mədəniyyət və İncəsənət Peşə Təhsili Mərkəzi)*
Məlahət Məmmədova (Bakı Dövlət Mədəniyyət və İncəsənət Peşə Təhsili Mərkəzi)*
İlham Salehli (Bakı Dövlət Mədəniyyət və İncəsənət Peşə Təhsili Mərkəzi)*
Məfisət Əlibəyova (Bakı Dövlət Mədəniyyət və İncəsənət Peşə Təhsili Mərkəzi)
Fərqanə Cəfərova (Bakı Dövlət Mədəniyyət və İncəsənət Peşə Təhsili Mərkəzi)
Aynurə Rzayeva (Bakı Dövlət Mədəniyyət və İncəsənət Peşə Təhsili Mərkəzi)
Aytac Kazımova (Bakı Dövlət Mədəniyyət və İncəsənət Peşə Təhsili Mərkəzi)
Aynur Osmanova (Bakı Dövlət Mədəniyyət və İncəsənət Peşə Təhsili Mərkəzi)
İlahə Qədirova (Şamaxı rayon tam orta məktəbi)*
Esmira Muradova (181 saylı orta məktəb)*
Rəhilə Qasımova (İsmayıllı)
Nazilə Musayeva (İsmayıllı)
*Həm ilkin seminarlarda, həm də tam pilot layihəsində iştirak edən müəllimlər.

Modul inkişafı seminarlarında iştirak edən tələbələr:

Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi
Nurlan Yedyarlı
Rüstəm Adıyev
Fidan Həsənzadə
Sahibə Ağayeva

Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci
Fidan Eliyeva
Nərgiz İbrahimova
Leyla Həsənzadə
Yeganə Hüseynova
Eli Salamzadə
Banuçiçək Əhmədzadə
Səriyyəxanım Zeynallı

Müəllimləri ilə birlikdə tam modul pilotunda iştirak edən tələbələrə minnətdarlığımızı ifadə edirik.

Tədqiqat layihəmiz üçün müsahibə verən Azərbaycanın hər yerindən gələn sənətkarlara bir daha minnətdarıq.

